# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi

(Əvvəli 3-cü səhifədə).

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 4-ü əlavə dəyər vergisi, sadələşdirilmiş vergi, dövlər rüsumu və sair daxilolmalar, dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxil olmalar üzrə proqnoz tapşırıqlar kəsrlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 845,3 min manat az vəsait daxil olmuşdur. Digər növ gəlirlər üzrə 876 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 30,7 min manat çox yerinə yetirilmişdir.

Yerli büdcənin hesabında 1 iyul 2016-cı il tarixə 359,6 min manat vəsait qalığı yaranmışdır.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Yarım il ərzində bütün növ istehlakçı qruplar tərəfindən 53 milyon 964,5 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 3 milyon 237,9 min manata qarşı 2 milyon 868,9 min manat vəsait toplanaraq yığım planı 88,6 % yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 85,8 %, dövlət müəssisələri üzrə 87,4 %, ticarət xidməti üzrə 93,2 %, özəl sənaye üzrə 82 %, əhali qrupu üzrə isə 84,9 % olmuşdur. Yarım il ərzində 10/6 kV-luq hava xəttinin 7,8 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. 10 kV-luq Bum, Vəndam, Nic qəsəbələrində Zarağan, Böyük Pirəli, Qaradeyn, Hacıalılı, Dizaxlı, Zalam, Mıxlıqovaq kəndlərində, Quşçuluq, şəhər 5-ci, 3-cü və 1-ci hava xətlərində 267 ədəd fiziki köhnəlmiş ağac dayaq KD-10,5, KD-9,5 tipli dəmir-beton dayaqlarla əvəzlənmiş, 37095 metr məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. Bunud, Nohurqışlaq kəndlərində, Nic qəsəbəsində və Qəbələ şəhərinin Almalıq məhələsində 160 və 250 kVa gücündə 4 ədəd transformator yarımstansiyaları quraşdırılmış, 6,1 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş və istismara yararsız naqillər ÖDİN-lə (özünü daşıyan izolyasiyalı naqil) əvəz edilmişdir. 48 ədəd transformator yarımstansiyasının mühafizə zonası alaq otları və kollardan təmizlənmiş, 13 ədəd transformator yarımstansiyasının 0,4 kV-luq çıxışında zədələnmiş kabellər yenisi ilə əvəz edilmişdir. 21,8 km məsafədə 0,4 kV elektrik verilişi hava xətlərinin mühafizə zonasında ağac kütlədən təmizləmə işləri aparılmışdır.

Təbii qaz istehlakçıları tərəfindən 22 milyon 722,7 min kub/metr təbii qaz istehlak edilmiş, 2 milyon 272,3 min manata qarşı 2 milyon 205,1 min manat vəsait toplanaraq ümumi yığım məbləği 97 % təşkil etmişdir. Həmin göstərici əhali sektoru üzrə 93,2 %, büdcə təşkilatları üzrə 79,1 %, sənaye, kommersiya və digər təşkilatlar üzrə üzrə isə 120,4 % təşkil etmişdir. 6 ay ərzində 1457 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 13592-yə çatdırılmışdır. Bum qəsəbəsində 1264, Qəmərvan kəndində 337, Mirzəbəyli kəndində 627, Həmzəli kəndində isə 473 evə müxtəlif diametrli qaz xətləri çəkilmiş və sayğac quraşdırılaraq qazın açılışı olmuşdur. Tüntül kəndində təbii qazdan istifadə edən 360 abonent, Bum qəsəbəsində 402 abonent, Yengicə kəndində isə 126 abonent kodlaşdırılmış, digər kəndlərin kodlaşdırılması işləri davam etdirilir. Rayon ərazisində 4 ədəd ŞQTM tipli yeni təzyiq tənzimləyicisi quraşdırılmışdır. 6 ayda 263 ədəd istismar müddəti bitmiş sayğac dəyişdirilmişdir.

Qəbələ Su-kanal İdarəsi tərəfindən "Qaraçay" və "Duruca" su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin Nizami küçəsində təmir-bərpa işləri aparılmış, axıntıların qarşısı alınmışdır. İsmət Qayıbov, Vahid Qəhrəmanov, Nəsimi, Nizami və Muxtar Abduyev küçələrində müxtəlif diametrli plastik və dəmir borular dəyişdirilərək 420 pm su xətləri təmir olunmuşdur. Zarağan kəndində məcburi köçkünlər üçün şəhərcikdə 1 ədəd su nasosu dəyişdirilmiş, Muxtar Abduyev küçəsində 52 m kanalizasiya xətti təmir edilmişdir.

Şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması sahəsində Dünya Bankının maliyyə dəstəyi ilə ayrı-ayrı küçələr üzrə 51100 pm su, 60433 pm kanalizasiya xətləri çəkilmişdir. Su xətləri üzrə 2790 ədəd, kanalizasiya xətləri üzrə 1216 ədəd ev birləşmələri verilmişdir. 6 ay ərzində 149,2 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 85 %-i yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 83 %, büdcə üzrə 75 %, kommersiya və digər təşkilatlar üzrə 65 % təşkil etmişdir.

"Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2014-cü il tarixli 961 nömrəli Sərəncamına əsasən Bəyli, Mirzəbəyli, Cığatelli, Seyidqışlaq, Məmmədağalı, Bunud və Həmzəli kəndlərinin hər birində 1 ədəd olmaqla (cəmi 7 ədəd) subartezian quyusu qazılaraq istifadəyə verilmişdir.

Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı 6 ay ərzində şəhər təsərrüfatına 182,5 min manat, ictimai yaşayış binalarına 25,6 min manat, idarə və müəssisələrə 35,4 min manat, kommersiya obyektlərinə və fərdi yaşayış evlərinə 9 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərmişdir.

Qəbələ rayon 11 saylı Yol İstismar İdarəsi tərəfindən 432,4 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya Qovşağı 590 min manat tarif gəliri proqnozuna qarşı 599 min manat gəlir əldə etmiş, proqnoz tapşırığa 101,5 % əməl etmişdir. Ümumilikdə rayon üzrə 1 şəhər, 30 kənd EATS-nin montaj tutumu 11980 nömrəyə çatdırılmışdır. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. Yarım il ərzində şəhər və kənd əhalisinə 623 ədəd telefon çəkilmiş, 825 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 4140 nəfər təşkil edir. 6 ay ərzində şəhər telefon şəbəkəsində 41 ədəd istismara yararsız rabitə dirəyi dəyişdirilmiş və yeni dəmir dirəklərlə əvəz edilmiş, Seyid Əzim Şirvani, Elçin Kərimov, 28 May, Nəsimi, Musabəyov, Mirzə Ələkbər Sabir və Sadiq Eyubov küçələrində ümumilikdə 2300 metr məsafədə kabel hava xətlərinin təmiri və tarıma çəkilmə işləri görülmüşdür. Vəndam qəsəbə EATS-dən Duyma istirahət zonasına 48 nömrəlik, Kürd kənd EATS-dən Savalan kəndinə 48 nömrəlik deslam avadanlığı montaj edilmişdir.

"Azərpoçt" MMC-nin Qəbələ filialı 119,5 min manata qarşı 129,7 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığına 108,5 % əməl etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 11,2 min manat artım olmuşdur.

Qəbələ Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində hal-hazırda 3.806 hərəkətdə olan sosial müavinət və təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 312,8 min manat təşkil edir. Yarım il ərzində 105 nəfər 18 yaşadək əlil uşağa, 161 nəfər I, II və III qrup əlillərə, 17 ailənin 33 uşağına ailə başçısını itirməyə, 56 nəfərə qocalığa görə müavinət təyinatı aparılmışdır. Bundan başqa 641 ailənin 760 uşağına anadan olmasına görə, 15 nəfərə dəfn üçün birdəfəlik müavinət ödənmişdir. 318 ailəyə ünvanlı sosial yardım təyin edilmiş, həmin ailələrdən 1 yaşadək uşağı olan 28 ailənin 28 uşağına müavinət təyin edilmişdir. Hazırda mərkəzdə 1089 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ rayon şöbəsi tərəfindən 2016-cı ilin birinci yarısında gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 4 milyon 017,7 min manata qarşı 3 milyon 188,7 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 79,4 % əməl olunmuşdur. 6 ay ərzində 603 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 20-si hüquqi, 506-si fiziki şəxs, 77-si isə pay torpaq mülkiyyətçisi olmuşdur. 01 iyul 2016-cı il vəziyyətinə şöbə üzrə 11593 pensiya işi üzrə 11887 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 11 milyon 382,4 min manat pensiya, 237,3 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 1924,2 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 165 manat 98 qəpik təşkil etmişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 251 min kub/metr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 490 min kub/metr çay məcrası daş və qumdan təmizlənmiş, 148 kub metr qabion bəndi vurulmuş, 1208 kub/metr daş beton bənd cari və əsaslı təmir edilmişdir.

Rayonumuzda 2016-cı ilin birinci yarısında tikinti abadlıq işləri sahəsində də xeyli işlər görülmüşdür. Qəbələ şəhərində "YAP Qəbələ Rayon Təşkilatının inzibati binası", Tufandağ oteli", "Qəbələ Park Bulvar Kompleksi", Dəmiraparan çayı üzərində 10 aşırımlı 324 paqonmetr uzunluğunda dəmir-beton körpü, Qəbələ-Qəmərvan yolu üzərində 1 aşırımlı 36 pm uzunluqda dəmirbeton körpü, "Nohurqışlaq-Tüntül-Yengicə" avtomobil yolunun əsaslı təmiri obyektlərində tikinti işləri başa çatdırılmışdır. "Asan Xidmət"in inzibati binası və "100 yerlik uşaq bağçası" binası və "Kənd Təsərrüfatı İdarəsinin inzibti binası" obyektlərində isə son tamamlama işləri aparılır.

Hazırda Qəbələ Futbol Akademiyası və Stadionlar kompleksi, "Aquapark" istirahət kompleksi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin inzibati binası, "Qrand siti" otel binası, rayon prokurorluğunun inzibati binası, Savalan kəndində "Raftinq Mərkəzi", rayon məhkəməsinin inzibati binası, Nohur gölü ərazisində sanataoriya kompleksi, Atçılıq mərkəzi, Qəbələ Peşə məktəbi, "Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidənqurulması layihəsi çərçivəsində içməli su və kanalizasiya şəbəkələrinin tikintisi" obyektlərində tikinti quraşdırma işləri davam etdirilir.

Bununla yanaşı Qəbələ şəhəri Muxtar Abduyev küçəsindəki 11 ədəd beşmərtəbəli yaşayış binalarında cari təmir işləri aparılır və şəhərin 28 may, Vahid Qəhrəmanov və 5 saylı tam orta məktəbin arxa hissəsindəki küçələrdə abadlıq işlərinin aparılması davam etdirilir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Rayonumuzda biri özəl olmaqla 24 məktəbəqədər uşaq tərbiyə müəssisəsi fəaliyyət göstərir.

Uşaq bağçalarındakı mövcud maddi-texniki vəziyyətin yaxşılaşdırılması məqsədi ilə 2016-cı ilin 6 ayı ərzində yerli büdcədən ayrılmış vəsaitə uyğun olaraq 12200 manatlıq yumşaq, 12200 manatlıq bərk inventar, 29700 manatına isə elektrik avadanlıqları alınaraq bütün uşaq bağçalarına verilmişdir.

Rayonun təhsil işçiləri cari ilin I yarısında təlim prosesinin bütün istiqamətlərində öz fəaliyyətlərini uğurla davam etdirmiş və bütün ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin müstəqil həyata hazırlanması sahəsində məqsədyönlü iş aparmışlar.

Görülmüş işlərin nəticəsidir ki, məktəblərimiz 2015/2016-cı tədris ilini yaxşı nəticələrlə başa vurmuş və ümumilikdə təlimin göstəriciləri yüksək olmuşdur. Biliyi qiymətləndirilən 15.762 nəfər şagirddən 3.995 nəfəri əla, 6.042 nəfəri isə "4" və "5" qiymətlərlə oxumuşdur.

Rayon üzrə müvəffəqiyyət faizi 99,7 %, keyfiyyət göstəricisi isə 63,8 % olmuşdur.

Məktəblərdən şəhər 1, 2, 3, 4 saylı, Vəndam qəsəbə 1, 2 saylı, Nohurqışlaq, Mirzəbəyli, Soltannuxa, Həmzəli və Zarağan kənd 1 saylı tam orta məktəblərinin keyfiyyət göstəriciləri daha yüksəkdir.

Təhsil nazirliyinin yeni təlimatına uyğun olaraq I siniflərə qəbul üzrə II rübün əvvəlində məktəblərdə qəbul komissiyaları yaradılmış və qəbul prosesi hazırda davam etdirilir.

(Ardı 5-ci səhifədə).